# 26 iyun - Qürur günümüz: Azərbaycan Silahlı Qüvvələr Günü

26 iyun tarixi Azərbaycan xalqı üçün cadəcə təqvimdəki bir gün deyil-bu qəhrəmanlıq , rəşadət və dövlətçilik tariximizin mühüm dönüm nöqtəsidir. İlk dəfə 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlandı. Həmin tarix müasir müstəqil Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılıb. Bu ordu xalqımızın azadlıq və dövlətçilik əzmini ifadə edirdi. 1918-ci ilin 1 avqustunda AXC-nin Hərbi Nazirliyi təsis edildi. General Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi.

1920-ci ildə AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Sovet hakimiyyəti dövründə də Rusiya imperiyasının azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi. Sovet dövründə çar dövründən fərqli olaraq azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar, lakin onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən qeyri-hərbi sahələrdə xidmət edirdilər.

Məqsəd aydın idi - azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyunun 20-də C. Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb təşkil etdi. Dövlət başçımız azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ- nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail olmuşdu.

C. Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləribitirmiş şəxslərin silahlı qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində misilsiz igidliklər göstərmişlər.




1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Silahlı Qüvvələrimizin inkişafı da yeni mərhələyə qədəm qoydu. Ölkəmizdə peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyuldu. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, ordudakı siyasiləşməyə son qoyuldu. Heydər Əliyev hakimiyyəti dövründə həm prezident, həm də Ali Baş Komandan olaraq, ordunun qüdrətli olmasına diqqəti yönəltdi.

Prezident Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalamışdır.

Prezidentin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır.

Artıq, Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Bu ordu işğal olunmuş əraziləri düşməndən azad etməli, ölkənin ərazi bütövlüyünü təmin etməli idi.

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu - Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir.

Azərbaycan xalqı hər il 26 iyun - Silahlı Qüvvələr gününü böyük qürurla, ruh yüksəkliyi ilə qeyd edir. Azərbaycan Ordusu dövlətimizin və xalqımızın güvənc yeridir. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəman əsgər və zabitləri 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildəki 23 saat çəkən hərbi əməliyyat nəticəsində müqəddəs torpaqlarımız yağı düşməndən birdəfəlik təmizlədi, Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Bu ali vəzifəni yerinə yetirməklə Azərbaycan Ordusu möhtəşəm zəfər qazandı və adını tarixə qızıl hırflərlə yazdı.

Bu uğurların ən başlıca səbəbi isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət başçısı postunda fəaliyyətə başladığı ilk gündən Ümummilli Liderimizin həyata keçirdiyi strateji əhəmiyyətli tədbirləri və ənənələri uğurla davam etdirməsi, o cümlədən, ordu quruculuğu işini prioritet elan etməsi ilə bağlıdır. Ölkəmizin dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin hər il artırılması ordumuzun güclənməsinə səbəb oldu. Bu gün Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer tutur. Cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi- texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Vətən müharibəsində Azərbaycan Ordusunun nümayiş etdirdiyi döyüş qabiliyyəti dünyanın müasir hərb elmində bir yenilik oldu. Təsadüfi deyil ki, hazırda dünyanın bir sıra hərbi mərkəzlərində Azərbaycan ordusunun tətbiq etdiyi hərbi strategiya öyrənilir.

Bu gün Ordumuz müasir cilahsursatla, peşəkar kadrlarla və ən əsası, yüksək vətənpərvərlik ruhu ilə təmin olunub. Hər bir Azərbaycan vətəndaşı üçün bu ordu qürur mənbəyidir.

**Azad MƏMMƏDOV,**
**'Qəbələ'.**

# Onlar vətən uğrunda döyüşmüşlər

Tarixi yenidən yazaraq özləri də tarixin bir hissəsinə çevrilərək tarixləşən oğullar bütün vətənpərvər insanların qan yaddaşında yaşayırlar. Həmişəbahar ömürlü bu igidlər Torpaq, Vətən və xalqın asayişi uğrunda şəhadət yolçusu oldular. Onları əbədi yaşatmaq isə bu xalqın hər bir vətəndaşının müqəddəs borcudur. Nəfəs aldığımız hər anımızda belə unutmamalıyıq ki, sakit səma, azad yaşam, səksəksiz ömür, xoşbəxt düşüncə, problemli-problemsiz yaşadığımız bu həyat üçün biz belə oğullarımıza borcluyuq. 44 günlük müharibədə düzgün seçilmiş siyasətlə hərəkət edərək tariximizə qanları ilə Zəfər "sözünü" yazdılar onlar. Bu ordumuzun gücü və ölkə rəhbərimizin düzgün siyasət xətti idi.

Unutqanlıq bizə yad olmalı. Bu gün Vətən üçün qan, xalqın azadlığı üçün can verən nur üzlü oğullarımız və onların çiliklənmiş arzuları unutqanlığı bizə bağışlamaz. Onları ruhən yaşatmaq hər bir şəxsin müqəddəs borcu olmalıdır.

Belə oğullardan həmyerlilərimiz - Qəbələ şəhidlərindən bir neçəsinin iyun ayında mövlududur. Oxucularımıza onları təqdim edirik.



**İdrisov Ruslan Qabil oğlu** - 2002-ci il iyunun 6-da Ukraynanın Odessa şəhərində anadan olmuş, ailəsi ilə birlikdə vətənə qayıtmış və Qəbələdə böyümüşdür. Orta təhsillidir, şəhər 3 saylı orta məktəbin məzunudur. Quru qoşunlarının əsgəri olan Ruslan 2020-ci ilin iyul ayının 1-dən həqiqi hərbi xidmətə başlamışdır. Vətən Müharibəsi başlanan gündən döyüşlərdə iştirak etmişdir. O, oktyabrın 1-də Suqovuşan döyüşləri zamanı Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində gedən döyüşdə şəhadətə qovuşmuşdur. Qəbələnin Soltannuxa kənd qəbristanlığında dəfn olunmuşdur.



**Abuşov Bəhruz Zalid oğlu** - 1983-cü il iyunun 18-də Nohurqışlaq kəndində doğulmuşdur. Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirmiş, mayor rütbəsi almışdır. O, Kəlbəcər, Xocavənd, Cəbrayıl və Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Qəhrəman hərbçimiz "Şuşa qartalı" ləqəbli Bəhruz Abuşov 2020-ci ilin noyabr ayının 8-də Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Nohurqışlaq kəndində dəfn olunmuşdur.

Ailəli olmuşdur, 2 övladı var.

Onun igidliyi bir sıra orden və medallarla təltif olunmuşdur.



**Musazadə Azər Çingiz oğlu** - 1998-ci ilin iyun ayının 25-də rayonumuzun Şəfili kəndində anadan olmuş, ali təhsillidir. O, Azərbaycan Texniki Universitetinin məzunudur. Orta təhsilini isə Elbrus Məmmədov adına Çarxana kənd məktəbində almışdır. Azər Musazadə Tərtər rayonu istiqamətində döyüşmüş, Suqovuşan uğrunda gedən döyüşlərdən birində şəhid olmuşdur. O, Şəfili kənd qəbristanlığında dəfn olunmuşdur.

Qəbələ şəhidlərinin hər üçü ölümündən sonra orden və medallarla təltif olunmuşdur.

Cənnətdəki mövludunuz mübarək, igidlərimiz! Allah sizlərə rəhmət eləsin!

**BİBİXANIM.**

# Azərbaycan qazı dünya bazarında

Azərbaycan güclü dövlətdir, iqtisadiyyatı da, sənaye və kənd təsərrüfatı da intensiv inkişaf etməkdədir. Belə bir inkişaf tempi təbii ki, enerji resursu ilə bağlıdır.

Mingəçevir SES hələ SSRİ dönəmində ölkənin iqtisadiyyatında əhəmiyyətli rol oynayırdı. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra da əhəmiyyətli sənaye müəssisəsi kimi iqtisadi sistemin aparıcı şəbəkəsi oldu. Bu günlərdə Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimi keçirildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mərasimdə çıxışında bu stansiyanın yaradılmasının ölkəmizin enerji potensialını artıracağını qeyd edərək Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1974-cü ildə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının təməli qoyulduğunu, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcəyini, müstəqilliyin ilk illərində Azərbaycanda enerji qıtlığı yarandığını, hətta axşam saat 12-də televiziya verilişlərinin də dayandırıldığını, 2018-ci ildə "Azərbaycan" İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyulduğunu da qeyd etdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında dedi:"...enerji sistemimizin səmərəliliyi artırılacaq, potensial, generasiya gücümüz artacaq, eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, bu, bizə təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Çünki hər kəs yaxşı bilir ki, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq. Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması bizə əlavə qazanc gətirəcək. Təbii olaraq, biz təbii qazın qənaətini, eyni zamanda, bərpaolunan layihələrdə görürük və görəcəyik. Azərbaycan bu istiqamətdə də qabaqcıl ölkələr sırasındadır. İmzalanmış, icra edilən və icra ediləcək bərpaolunan enerji layihələri 2030-cu ilə qədər bizə 6500 meqavat yaşıl enerji verəcəkdir və əgər bu gün bizim ümumi generasiya gücümüz 9000 meqavatdırsa, bu, nə deməkdir, bunu hər kəs başa düşə bilər. Eyni zamanda, bizə təbii qaza qənaət etmək üçün imkanlar yaradılacaq və belə olan halda təbii qazımızın ixracı daha da artacaq. Yəni, bir neçə məqsəd burada təmin edilir və əlbəttə ki, bütün bu işlərin təməlində bizim düşünülmüş siyasət dayanır. Çünki biz hər istiqamət üzrə düşünülmüş siyasət və proqramlar əsasında çalışırıq".

Bölgənin, bu infrastruktur obyektinin ölkəmiz üçün böyük əhəmiyyəti olduğunu da diqqətə çatdıran dövlət başçımız bildirdi ki, bu gün bizim ölkəmiz sabitlik, inkişaf, tərəqqi məkanı kimi dünya miqyasında tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq.

Dövlət başçımızın stansiyanın adı haqqında dedikləri də qürurla dinlənildi, qürurla tarixləşdi: Bu gün bu stansiyanın adının seçilməsi də çox vaxt aparmadı. Təklif edilən variantlar arasında "8 Noyabr"ı mən seçdim. Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır. Əminəm ki, bu stansiyanın ömrü uzun və fəaliyyəti uğurlu olacaq.

Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının açılması həm Azərbaycanın gücünün stimullaşdırılmasını təmin edir, həm də iqtisadiyyatının gücləndirilməsini. Azərbaycanın iqtisadi qüdrəti daha da artacaqdır.

**"Qəbələ"**